# Erməni vandalizmi heç vaxt unudulmayacaq

**2 aprel 1993-cü il tariximizə qara hərflərlə yazıldı. O gün xalqımız kədər dolu bir gün yaşadı. Ermənistanın silahlı qüvvələri xeyli müddət davam edən gərgin döyüşlərdən sonra 70 min əhalisi olan Kəlbəcər rayonunu işğal etdi. Tərtər-Ağdərə-Kəlbəcər yolu erməni işğalçıları tərəfindən bağlandıqdan sonra əsas döyüşlər Kəlbəcər ətrafında davam etməyə başladı. İşğalçılıq hücumlarına ara verməyən ermənilər havadarlarının güclü dəstəyi ilə 25 fevral 1993-cü ilə qədər Ağdərənin xeyli hissəsini işğal etdilər. Qərb tərəfdən dövlət sərhədi boyunca yerləşən Ermənistan silahlı qüvvələri, cənub və şərq tərəfdə Qarabağdakı erməni qruplaşması işğalçılıq niyyətini həyata keçirmək üçün Kəlbəcər istiqamətində mövqe tutmuşdular.**

Ermənistan silahlı qüvvələri 26 mart 1993-cü ildə 5 helikopterdən, tanklar və piyadalardan ibarət hərbi qüvvəsi ilə Ağdərə-Kəlbəcər magistral yolu istiqamətində hücuma keçdi. İşğalçılar ilk andaca ciddi müqavimətlə rastlaşaraq ağır itki verib geri çəkildilər. Qəsbkarlıq niyyətindən əl çəkməyən yağılar ertəsi gün Mi-24 döyüş helikopterlərindən istifadə edərək yenidən hücuma cəhd göstərdilər. Bu dəfə də ciddi müqavimətlə qarşılaşdıqlarından məqsədlərinə çata bilmədilər. Təəssüflər olsun ki, martın 28-də düşmən Ağdaban istiqamətindən müdafiə xəttini yardı. Çox keçmədi ki, qəsbkarlar Kəlbəcər və Laçını birləşdirən avtomobil tunelini ələ keçirdilər. Getdikcə güclənən erməni hücumları aprel ayının 2-də Kəlbəcərin işğalı ilə nəticələndi. Rayonun işğalı o günlər, o zamanlar üçün Qarabağ müharibəsində Azərbaycanın ən böyük hərbi-strateji məğlubiyyəti oldu.

Kəlbəcərin işğalı çox ağır, ürəkdağlayan itkilərlə nəticələndi. Bu qanlı faciə zamanı 511 nəfər həlak oldu, 321 nəfər itkin düşdü və girov götürüldü, 53 mindən artıq insan dədə-baba torpaqlarından silah gücünə qovuldu. İşğal nəticəsində rayon mərkəzi, 150 yaşayış məntəqəsi, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, 9 xəstəxana düşmən əlinə keçdi. Evlər, mənzillər dağıdıldı, 37852 ha meşə sahəsi, təbii ehtiyatlar, o cümlədən zəngin qızıl yataqları talan edildi. 1993-cü ilin hesablamalarına görə işğal nəticəsində Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon manat ziyan vuruldu. Doğma ocaqlarından məcburi köçkün düşmüş sakinlər ölkəmizin 56 rayon və şəhərində ağır vəziyyətdə ata-baba yurdlarının həsrətini çəkə-çəkə yaşadılar.

Kəlbəcər rayonu keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) tərkibinə daxil deyildi. Qarabağa aid olmayan bir bölgənin ələ keçirilməsi ermənilərin işğalçılıq planlarının daha da geniş olacağından xəbər verirdi. Kəlbəcəri zəbt edən Ermənistan silahlı qüvvələri artıq Qarabağın hüdudlarından kənara çıxmışdı. Dağlar qoynunda yerləşən bu rayonun işğal edilməsi Ermənistanın Azərbaycan torpaqları hesabına sərhədlərinin genişləndirməsini göstərirdi. Buna görə də çox keçmədi ki, ermənilər işğalçılıq planlarını daha da genişləndirərək başqa rayon və bölgələrimizi ələ keçirməyə başladılar.

Kəlbəcər rayonu bir neçə kanyon və Murovdağ kimi tanınan yüksək dağ silsiləsi ilə əhatə olunub. Dörd istiqamətdən rayona hücüm edən ermənilər Kəlbəcəri qəsb etməklə Ermənistanın Qarabağa yardım göndərməsi üçün ikinci dəhliz açmış oldular. Kəlbəcəri işğal etməklə düşmən bir çox əlverişli yüksəkliklərə də nəzarəti ələ aldı. Bu da qəsbkarlar üçün növbəti işğalçılıq planlarını həyata keçirməyə əlverişli imkan yaratdı. İşğalını davam etdirən ermənilər Laçın rayonunun şimal hissəsinə yaxın ərazini də ələ keçirdilər. Bununla da kifayətlənməyən düşmən irəliləyərək Ömər aşırımına qədər gəlib çıxdılar.

Ölkəmizin dilbər guşələrindən biri olan Kəlbəcərin işğalından sonra Birləşmiş Milltələr Təşkilatının Təhlükəsizlik Şurası 30 aprel 1993-cü ildə 822 nömrəli qətnamə qəbul etdi. Qətnamədə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın tarixi ərazisi olan Kəlbəcər rayonunu işğal etməsi qətiyyətlə pislənildi. Və bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olundu. Həmin ərəfədə təkcə BMT deyil, bir çox beynəlxalq təşkilatlar Ermənistanın Kəlbəcəri işğal etməsini pisləyən bəyanatlar yaydı. Türkiyə və Pakistan respublikaları Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının bölgədəki erməniləri Kəlbəcərdən və Azərbaycanın digər ərazilərindən dərhal çəkilməsini tələb edən 822 nömrəli qətnaməsinə dəstək verdi. Amma təəssüflər olsun ki, erməni qəsbkarları nə BMT-nin qətnaməsinə, nə də bir sıra beynəlxalq təşkilatların və ayrı-ayrı dövlətlərin bəyanat və etirazlarına məhəl qoymayaraq işğalçı qüvvələrini Kəlbəcərdən çıxarmadılar və rayonu azad etmədilər.

Çox təəssüflər olsun ki, Kəlbəcərin işğalı 27 ildən çox davam etdi. Doğma ocaqlarından didərgin düşmüş insanlar geri dönəcəkləri günü illərlə, özü də həsrətlə gözlədilər. Kəlbəcər həsrəti 2020-ci ilin noyabrında bitdi. Ölkəmizin gözəl guşəsi olan Kəlbəcər rayonu da Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında İkinci Qarabağ müharibəsində qazandığı Zəfər nəticəsində erməni işğalından azad edildi. Ağır məğlubiyyət acısı yaşayan Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur olundu. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, bu şanlı tarix Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.

2021-ci il avqustun 16-da Prezident İlham Əliyev Kəlbəcər şəhərində Dövlət Bayrağını ucaltmış və çıxışında bu tarixi hadisənin əhəmiyyətindən bəhs edərək demişdir: "Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq".

Bu gün hər birimizin qəlbində Kəlbəcər sevinci dolaşır. İşğaldan azad olunmuş başqa bölgələrimiz kimi, bu yurdun da keçmiş köçkünləri böyük sevinc içində dövlətimizin onlar üçün tikdikləri evlərə, doğma ocaqlarına, illərdən bəri həsrəti ilə yaşadıqları Kəlbəcərə qayıdırlar. Onların çöhrələrindən bu sevinc, bu fərəh heç vaxt əskik olmayacaq. Ata-baba yurduna qayıtmış insanlar nə qədər sevinsələr də, fərəhlənsələr də, erməni işğalını heç vaxt unutmayacaqlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 24 avqust (№ 178).- S.6.